

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 124 (21.276)

25 iyun 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 24 iyun tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru Yaşar Əli oğlu Həsənova ədliyyə general-mayoru ali hərbi rütbəsi verilmişdir.

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 24 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusuna ali hərbi rütbə verilmişdir. Ali hərbi rütbə verilənlər arasında Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçuları da vardır.

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Eyyubov Teymur Tərlan oğlu

polkovnik Orucov Elman İzzət oğlu

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 24 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində səmərəli fəaliyyətlərinə, mədəniyyətin, təhsilin, səhiyyənin inkişafındakı xidmətlərinə görə Silahlı Qüvvələrin bir qrup hərbi qulluqçusuna və mülki işçisinə Azərbaycan Respublikasının fəxri adları verilmişdir. Fəxri ad alanlar arasında Naxçıvan Muxtar Respublikasının təhsil və səhiyyə işçiləri də vardır.

**"Əməkdar müəllim"**

Həsənova Lalə Sadıq qızı

**"Əməkdar həkim"**

Əliyev İbrahim Alxan oğlu – tibb xidməti polkovniki

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 24 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə, hərbi təhsil sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu və mülki işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçuları da vardır.

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əlibəyov Elxan Əlibəy oğlu – polkovnik

Əliyev Pərviz Abid oğlu – polkovnik-leytenant

**"Vətən uğrunda" medalı ilə**

Bayramov Namiq Süleyman oğlu –polkovnik

Rzayev Mübariz Mehman oğlu – polkovnik

**"İgidliyə görə" medalı ilə**

Dadaşov Haqverdi Xudaverdi oğlu – polkovnik-leytenant

Ələkbərov Pərviz Ağasalam oğlu – polkovnik-leytenant

**"Tərəqqi" medalı ilə**

Rəfiyev Hüseyn Səfər oğlu

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Həsənov Elşad Humay oğlu – polkovnik

## Muxtar respublikada taxıl biçini davam etdirilir





"Kənd təsərrüfatı ili"ndə muxtar respublikada aqrar sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsi xeyli genişləndirilmiş, bol məhsul istehsalı üçün zəmin yaradılmışdır. Yeni suvarma şəbəkələrinin qurulması kənd təsərrüfatı bitkilərinin, xüsusilə də əsas ərzaq məhsulu olan taxıl əkini sahələrinin artırılmasına səbəb olmuş, bu ilin məhsulu üçün 36 min hektardan artıq sahədə taxıl əkilmişdir. Əkin zamanı keyfiyyətli və məhsuldar toxum sortlarından istifadə edilmiş, sahələrdə vaxtlı-vaxtında suvarma və aqrotexniki qulluq işləri görülmüşdür. Hazırda muxtar respublikada taxıl biçini həyata keçirilir.

İyunun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət" Toxumçuluq Təsərrüfatının Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlmiş, taxıl biçininin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Böyükdüz kəndi ərazisində yeni suvarma sistemlərinin qurulması və ərazidə meliorativ tədbirlərin görülməsi hesabına uzun müddət əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatılmışdır. Bu ilin məhsulu üçün 410 hektar sahədə şırım üsulu ilə yerli iqlim şəraitinə uyğun məhsuldar "Quality" toxum sortu əkilmişdir. Hazırda biçin işlərinin vaxtında və itkisiz aparılmasına xüsusi diqqət yetirilir. Bunun üçün əvvəlcədən



müvafiq tədbirlər görülmüş, texnikalar hazır vəziyyətə gətirilmişdir. Biçinə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 7 kombaynı cəlb olunmuş, mexanizator və kombaynçılar üçün lazımi şərait yaradılmışdır. Bu günə qədər 50 hektarda biçin işləri başa çatdırılmışdır. Məhsuldarlıq orta hesabla 24 sentnerdir.

Taxıl biçini ilə tanışlıqdan sonra Ali Məclisin Sədri mexanizator və kombaynçılarla görüşmüşdür.

Ali Məclisin Sədri demişdir ki, bu gün muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Torpaq mülkiyyətçilərinin texnika və su təminatı ilbəil yaxşılaşdırılır, əl əməyi yüngülləşdirilir. Muxtar respublikada əsas ərzaq məhsulu olan taxılın istehsalına xüsusi diqqət yetirilir. Hər il taxıl əkini sahələri genişləndirilir, məhsuldarlığın artırılması istiqamətində ardıcıl tədbirlər görülür, müasir kombaynlar alınır. Bu da bol məhsul istehsalına, biçin kampaniyasının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir. Kombaynçılar və mexanizatorlar yaradılan bu şəraitdən səmərəli istifadə etməli, məhsuldar işləməli, yanğın təhlükəsizliyi qaydalarına əməl olunmalı, taxıl biçini vaxtında başa çatdırılmalıdır.

Ali Məclisin Sədri biçin kampaniyasını uğurla apardıqlarına görə kombaynçılara və mexanizatorlara təşəkkür etmişdir.

* * *

Ali Məclis Sədrinin tapşırığına əsasən "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bazasındakı ehtiyat kombaynlardan 2-si Şərur, 1-i isə Babək rayonuna verilmişdir.

## Kəngərli rayonunun Böyükdüz kəndində yeraltı suvarma şəbəkəsi qurulur

Muxtar respublikada torpaq sahələrinin su təminatının yaxşılaşdırılması və rentabelli suvarma şəbəkələrinin qurulması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir. Hazırda Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində vaxtilə mövcud olmuş yeraltı suvarma şəbəkəsi bərpa olunur.

İyunun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeraltı suvarma şəbəkəsinə baxmışdır.

Bildirilmişdir ki, yeraltı suvarma şəbəkəsi 400 hektar ərazini əhatə edir. Hazırda 231 hektarda bərpa işləri başa çatdırılmışdır. Ərazidə uzunluğu 2875 metr olan əsas boru xətti çəkilmiş, 455 hidrant qoyulmuş, sugötürücü və nəqledici boru xətləri yenilənmişdir. Həmçinin qapalı drenaj xətləri bərpa olunmuş, 3 min metr açıq və 1500 metr qapalı kollektor sistemi qurulmuşdur. Bu da şoranlaşmaya və su itkisinə yol vermədən vegetasiya müddətində ərazinin lazım olan miqdarda və tələb olunan keyfiyyətdə suvarılmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri yeraltı suvarma şəbəkəsinin əhatə etdiyi ərazilərdə taxıl və qüvvəli yem bitkiləri əkininin aparılması, o cümlədən yaxınlıqdakı 2300 hektar sahədə yeni yeraltı suvarma şəbəkəsinin qurulması layihəsinin hazırlanması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



***"Azərbaycanın müstəqilliyinin əsası ötən əsrin 90-cı illərində ümummilli liderimizin rəhbəri olduğu Naxçıvanda qoyulduğu kimi, milli ordu quruculuğu sahəsində ilk addımlar da həmin dövrdə Naxçıvanda atılmışdır. Ulu öndərimizin bu dövrdə qəbul etdiyi taleyüklü qərarlar sayəsində muxtar respublikanın etibarlı müdafiəsi təmin olunmuş, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən müvafiq dövlət qurumu yaradılmışdı. Bundan bir il sonra, 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk nizami ordu qurumlarından olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil olunmuş, bununla da, milli ordu hissələrinin yaradılmasının əsası qoyulmuşdu. Ümummilli liderimizin ali hakimiyyətə ikinci qayıdışından sonra Azərbaycan Silahlı Qüvvələrinin yaradılması sahəsində tədbirlər davamlı xarakter almış, ordu quruculuğu diqqət mərkəzində saxlanmışdır".***



Ordum varsa

## Güclü ordu, nümunəvi xidmət, qələbə əzmli əsgər

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il oktyabrın 20-də Əlahiddə Ümumqoşun Ordusu üçün yeni Təlim-Tədris Mərkəzinin açılış mərasimində söylədiyi bu fikirlər muxtar respublikada ordu quruculuğu sahəsində atılan ilk addımların müasir silahlı qüvvələrimizin formalaşdırılması və inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bir daha göstərir. Ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə – Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə xalqımız qarşısında ən böyük xidmətlərindən biri muxtar respublikanın təhlükəsizliyini təmin etməsi və ilk nizami milli ordu hissələrini yaratmasıdır. Ən yeni tariximizin səhifələrinə böyük hərflərlə yazılmış ordu quruculuğu ötən dövr ərzində Naxçıvanda sürətli inkişaf yolu keçmiş, aparılan dövlət siyasətinin prioritetinə çevrilmişdir. Blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasında hərbi təyinatlı tikinti-quruculuq işlərinin geniş vüsət alması, maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin döyüş ruhunun artırılması bu yöndə atılan addımların mühüm tərkib hissəsi olmuşdur. Motoatıcı briqadadan Əlahiddə Ümumqoşun Ordusu səviyyəsinədək böyük inkişaf yolu keçmiş Naxçıvan ordusu Azərbaycan ordusunun muxtar respublikada gücünü bir daha ortaya qoyur. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 97-ci ildönümü ərəfəsində bu gücün əyani mənzərəsini bir daha oxucularımızla bölüşmək istədik. Yolumuz Kəngərli rayonunun Qıvraq qəsəbəsində yerləşən "N" hərbi hissəsinədir.

Silahlı Qüvvələrimizin Qıvraq qəsəbəsində yerləşən bu hərbi hissəsi hələ sovetlər dönəmindən çoxlarına tanışdır. Bu hərbi hissə müstəqilliyimizin ilk illərində muxtar respublikamızın müdafiəsinin təşkil olunmasında, erməni hərbi birləşmələrinin mütəmadi hücumlarının qarşısının alınmasında mühüm rol oynayan hissələrdən biri olmuşdur. Hərbi hissə ötən əsrin sonlarında Sədərək, Şərur rayonunun Şahbulaq, Yuxarı Yaycı, Havuş kəndləri uğrunda gedən döyüşlərdə xüsusi fəallıq göstərmiş, onlarla şəhid vermişdir. Muxtar respublikamızın ərazi bütövlüyünün qorunmasında öz sözünü demiş bu hərbi hissə indi müasirliyi ilə göz oxşayır. Ötən müddətdə burada həyata keçirilən kompleks tədbirlər nəticəsində bir-birindən yaraşıqlı yeni



obyektlər – qərargah binası, yeməkxana, əsgər yataqxanası, əsgər-məişət kompleksi, Təlim-Tədris Mərkəzi yaradılmışdır. 2013-cü ildə 705 nömrəli hərbi hissənin yaradılmasının 21-ci ildönümündə burada yeni əsgər yataqxanası istifadəyə verilmişdir. Əsaslı şəkildə yenidən qurulan 5 mərtəbəli əsgər yataqxanasının hər mərtəbəsində məişət guşələri, təlim sinfi, ideoloji otaq və ayrı-ayrı xidməti otaqlar vardır. 2014-cü il oktyabrın 20-də isə Təlim-Tədris Mərkəzi istifadəyə verilmişdir. Üç mərtəbədən ibarət olan mərkəzdə Heydər Əliyev muzeyi, Döyüş şöhrəti muzeyi, kitabxana, iclas zalı, zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, mühəndis hazırlığı və kəşfiyyat hazırlığı sinifləri, kütləvi qırğın silahlarından müdafiə sinfi, atəş hazırlığı, maket və topoqrafiya, komplektləşdirmə, komandir hazırlığı və digər sinif otaqları vardır. Otaqlarda nəzəri təlim üçün lazım olan bütün əyani vəsaitlər və məlumat stendləri qoyulmuşdur. Burada yerləşən Heydər Əliyev muzeyində ümummilli liderin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən müxtəlif fotoşəkillərdən, kitab, jurnal və videomateriallardan ibarət zəngin ekspozisiya yaradılmışdır. Eyni zamanda muzeydə dahi şəxsiyyətin vaxtilə muxtar respublikada ordu quruculuğu istiqamətində qəbul etdiyi qərarların surətləri də nümayiş etdirilir.

Döyüş şöhrəti muzeyində isə müstəqillik illərindən başlayaraq hərbi hissənin keçdiyi döyüş yoluna aid fotoşəkillər, hərbi geyim dəstləri və sair təqdim olunur.



Həmçinin mərkəzdə yaradılmış virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif təlimlərin keçirilməsinə imkan verir. Hərbi hissənin zabiti Asif Dadaşov deyir ki, ordumuza göstərilən diqqət və qayğı, zabitlərimizin xidmətlərinin qiymətləndirilməsi bizi daha da ruhlandırır. Söhbət əsnasında müsahibimiz əsgərlərin təlim-tərbiyəsi, onların vətənpərvər ruhda yetişdirilməsi üçün keçirilən ideoloji dərslərdən, fiziki tərbiyədən tutmuş hərbi hissədə təşkil olunan idman yarışlarınadək bütün tədbirlər haqqında məlumat verir. O da vurğulanır ki, indi əsgərlərimiz hərbi xidmətə böyük sevgi ilə yanaşır, burada olduqları müddətdə əsl kişilik məktəbi keçirlər.

Hərbi hissədə olduğumuz zaman burada xidmət edən əsgərlərlə də söhbət edirik. Ordubad rayonundan hərbi xidmətə çağırılmış Elməddin Əliyev xidməti ilə bağlı deyir ki, belə bir nümunəvi hərbi hissədə xidmət keçməyi ilə fəxr edir. Burada bizim üçün hər cür şərait yaradılıb. Bizə keçilən dərslər, təlimlər nə vaxtsa lazım olacaq. Komandirlərimiz də bu işdə bizə yaxından köməklik edirlər. Çalışırlar ki, bizi hər an döyüşə hazır əsgər kimi yetişdirsinlər. Sevinirəm ki, xidmətə gəldikdən sonra burada çox şey öyrənmişəm.

Elmir Əzizli isə İmişli rayonundan hərbi xidmətə çağırılıb: "Naxçıvanda xidmət etməyimlə qürur hissi keçirirəm. Bu qürur hissi onunla bağlıdır ki, ümummilli liderimiz Heydər Əliyev ilk dəfə ordu quruculuğuna bu qədim Azərbaycan torpağında başlayıb. Bizim xidmət etdiyimiz hərbi hissə Naxçıvanın ağır günlərinə şahidlik edib. Məlumatımız var ki, bu hərbi hissədə Azərbaycanımızın çox mərd, cəsur oğulları xidmət edib. Onlardan bəziləri Vətən uğrunda şəhid olublar. Bizim də əsas məqsədimiz odur ki, belə qəhrəman oğullarımızla fəxr etməklə yanaşı, həm də onların yolunu davam etdirək. İnanırıq ki, Ali Baş Komandanın əmri ilə tezliklə Vətənimizin işğal altında olan torpaqlarını azad edəcəyik".

Kürdəmir rayonundan hərbi xidmətə gəlmiş Elvin Qədirli, Babək rayonundan olan Aysun Bayramov da əsgər yoldaşlarının fikirlərini bölüşərək hərbi hissədə yaradılmış şəraitdən, hərbi xidmətdən, asudə vaxtlarının səmərəli təşkilindən ağızdolusu və minnətdarlıqla danışdılar. Bildirdilər ki, ən böyük arzuları işğal altında olan torpaqlarımızın tezliklə azad olunmasıdır. Ordumuzun qalibiyyət xəbərinin iştirakçısı olmaq istəyən bu gənclər o günün çox da uzaqda olmadığına inanırlar.



*Bəli, bu gün ordumuzun, həqiqətən, Qələbəyə ehtiyacı var. Sürətlə inkişaf edən ölkəmizin iqtisadi gücü Silahlı Qüvvələrimizin də gündən-günə güclənməsinə şərait yaradır. Kəngərli rayonunun Qıvraq qəsəbəsində yerləşən "N" hərbi hissəsinin timsalında bunu bir daha gördük. Son dövrlərdə Azərbaycan-Türkiyə birgə hərbi təlimləri, eləcə də Əlahiddə Ümumqoşun Ordusunun gecə şəraitində taktiki təlimi bir daha muxtar respublikamızın hərbi potensialının yüksək səviyyədə olduğunu göstərdi. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin də dediyi kimi:* ***"Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".***

✍ **Səbuhi HƏSƏNOV**

## Silahlı Qüvvələr Günü qeyd olunub

***İyunun 24-də Şahbuz rayonundakı "N" hərbi hissədə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 97-ci ildönümü münasibətilə bayram tədbiri keçirilib.***

Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov bayram münasibətilə əsgər və zabitləri təbrik edərək bildirib ki, müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan ordusunun yaradıcısıdır. 1991-ci ilin sonlarında SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan mürəkkəb ictimai-siyasi vəziyyətlə üzləşmişdi. Ölkədəki ağır vəziyyət, xaos və özbaşınalıq ordu siyasəti sahəsində də özünü göstərmişdi. Səriştəsiz rəhbərlərin bacarıqsızlığı ucbatından silahlı birləşmələr daxili siyasi mübarizəyə cəlb olunmuş, ayrı-ayrı şəxslərə və siyasi qruplara xidmət edən silahlı dəstələrə çevrilmişdi. Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Ulu öndər ordu quruculuğuna hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən başlamışdı.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Güclü ordu yaradılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da, sözün həqiqi mənasında, düşmən qarşısında alınmaz qalaya çevrilib. Hərbi hissələr üçün onlarla yeni binalar – əsgəri-məişət-yaşayış kompleksləri, müxtəlif təyinatlı obyektlər tikilib istifadəyə verilib. Bu hissələrin texniki arsenalının təminatı da dəfələrlə yaxşılaşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşı Qabil Vəliyev və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar çıxış edərək Vətənin keşiyini çəkən əsgərləri təbrik edib, onlara hərbi xidmətdə uğurlar arzulayıblar.

Şairlərdən Həsənalı Eyvazlı, Elxan Yurdoğlu, Qanun Ümman, Zeyqəm Vüqar vətənpərvərlik ruhunda şeirlər səsləndiriblər.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyası solistlərinin ifaları əsgərlər tərəfindən alqışlarla qarşılanıb.

Sonda Naxçıvanda yaşayıb-yaradan şair və yazıçıların kitabları əsgərlərə təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Oxucu məktubları

*Razılıq*

## "Muzey günləri" mühüm ictimai əhəmiyyətə malikdir

***Hörmətli redaksiya!***

Bu məktubu sizə ünvanlamaqda məqsədim "Muzey günləri"nin, muzeylərə kollektiv gedişlərin, ziyarətlərin müsbət nəticələri barədə fikirlərimi oxucularla bölüşməkdir.

Hər birimizə məlumdur ki, qədim Naxçıvanın 5 minillik zəngin tarixi keçmişi var. Bura, necə deyərlər, insanlığın ikinci yaradılış yeri, dünya sivilizasiyasının beşiyi hesab edilir. Qədim diyarımız böyük tarixi şəxsiyyətlər – siyasətçilər, sərkərdələr, yazıçılar, alimlər yetişdirib, dahilər yurdu kimi şan-şöhrət qazanıb. Sevinirəm ki, muxtar respublikamızda yaradılan muzeylər də məhz qədim mədəniyyətimizi, tarixi inkişaf yolumuzu, tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini əks etdirir, Naxçıvanın keçmişinə işıq salır. Qədim diyarımızda aparılan məqsədyönlü gərgin iş hesabına muzey şəbəkələrinin yaradılması mədəniyyətimizin ümumi yüksəlişini, milli şüurun inkişafını əks etdirir. Muzeylərimiz zəngin mədəni irsimizin qorunmasında və təbliğində, gənc nəslin bədii və estetik tərbiyəsində, elmi dünyagörüşünün zənginləşməsində böyük rol oynayır.

Bu mənada, muxtar respublikamızda "Muzey günləri"nin keçirilməsi bizim doğma diyarımızın tarixi barədə, hətta deyərdim ki, yeni məlumatları öyrənməyimiz baxımından çox böyük əhəmiyyətə malikdir. Çünki əgər biz keçmişimizi unutsaq, gələcəyimiz təhlükə qarşısında qalar. Çin xalqının belə bir deyimi var: keçmiş gələcəyin müəllimidir. Qeyd edim ki, elmi-mədəni inkişafımızda müəllimin hansı önəmə sahib olduğunu izah etməyə ehtiyac yoxdur. Bugünkü muzeylər də keçmişimiz barədə əyani məlumat mənbəyi kimi bizim üçün müəllim rolunu oynayır, tariximizi öyrədir, yaddaşımızı təzələyir, bizi kökümüzə, milli-mənəvi dəyərlərimizə möhkəm tellərlə bir daha sıx bağlayır.

Bütün bunları düşünəndə muxtar respublikada keçirilən "Muzey günləri"nin mühüm ictimai əhəmiyyətini bir daha dərk edirik. Ona görə də mən çox sevinirəm ki, bu gün muxtar respublikamızda keçmişi özündə yaşadan muzeylərə kollektiv gedişlər təşkil olunur. Bu, nümunə gücündə olan çox böyük addımdır. Quranlar, yaradanlar, bizə doğru yolu göstərənlər, keçmişimizə hörmət, gələcəyimizə inamla baxmağı öyrədənlər var olsunlar.

**Sahib HÜSEYNOV**
***Şahbuz şəhər sakini***

*Minnətdarlıq*

## Hərbi Liseydə nizam-intizamlı, vətənpərvər gənclər yetişdirilir



***Hörmətli redaksiya!***

İnsan bəzən o qədər sevincli olur ki, bu hissləri təkcə ailə üzvləri ilə deyil, hamı ilə paylaşmaq istəyir. Mən də qəzet vasitəsilə bu günlərdə yaşadığım sevinc hisslərini oxucularla bölüşmək istədim. Heydər Əliyev adına Hərbi Lisey yüzlərlə vətənpərvər gənci öz ətrafında birləşdirir. Ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan olan Hərbi Lisey fəaliyyətə başladığı dövrdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərtərəfli qayğısı ilə əhatə edilib. Biz də istədik ki, övladımız bu ünvanda təhsil alsın, hərbçi kimi yetişmək istiqamətində ilk addımlarını buradan atsın. Şükür ki, arzumuza çatdıq. Oğlum bu il liseydən məzun oldu. Bir ailə üçün bundan böyük qürur ola bilərmi? Həm də ona görə qürur duyuruq ki, övladımız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan bir təhsil ocağından məzun olub. Bundan sonra oğlumu daha böyük vəzifələr gözləyir. Valideyn kimi onun işıqlı gələcəyinə inanıram. Çünki övladım müstəqil Azərbaycanın qüdrətli ordusunun gələcək zabitidir. Zabit adını daşımaq böyük məsuliyyətdir. Bu gün istər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər.

***Hörmətli redaksiya!*** Bizim ailəyə bu sevinci yaşadan liseydə yaradılmış yüksək tədris şəraiti, möhkəm hərbi nizam-intizam, dövlətimizin müdafiəsinə daim can-başla hazır olan gənclərin yetişdirilməsinə göstərilən dövlət qayğısıdır. Belə qayğıdan bəhrələnənlərdən biri də mənim övladımdır. Bunun üçün ailəmiz adından dövlətimizə dərin minnətdarlığımı bildirirəm.

**Namiq VƏLİYEV**
***Kəngərli rayonunun***
***Qıvraq qəsəbə sakini***

## Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması muxtar respublikada təhsilin inkişafı istiqamətində görülən işlərin davamıdır

Bir təhsil işçisi kimi muxtar respublikada bu sahənin inkişafına göstərilən qayğı barədə geniş danışa bilərəm. Bu reallığın cəmiyyətimizdəki bəhrələrini görəndə qürur hissi keçirməmək mümkün deyil. İlbəil artan uğurlar isə həyatımızın bütün sahələrində özünü göstərir. Və təhsilin millətin gələcəyi olduğu deyimini bir daha təsdiq edir.

Hər il Naxçıvanda yeni məktəb binalarının tikintisi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, informasiya texnologiyalarının tətbiqi təhsilimizin müasir standartlar səviyyəsinə çatdırılmasını təmin edib.

2015/2016-cı tədris ilindən fəaliyyətə başlayacaq Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi həm valideynlərin, həm də adıçəkilən fənlərə maraq göstərən şagirdlərin böyük sevincinə səbəb olub. Bu günlər bizim ailənin də sevincinin həddi-hüdudu yoxdur. Böyük övladımız Ayxan Mirzəyev həmin məktəbin IX sinfinə qəbul olunub. Şəffaf şəraitdə keçirilən imtahanlardan bütün valideynlər razılıq edirlər. Daha bir məqamı xüsusi vurğulamağı vacib sayıram. Məlumdur ki, ölkəmizdə belə profilli təhsil ocaqlarının əksəriyyəti ödənişlidir. Bu da hər uşağın həmin məktəbdə oxumasına imkan vermir. Ancaq Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə təhsil almaq dövlət hesabınadır və ailənin maddi vəziyyətindən asılı olmayaraq, hər bir uşaq burada oxuya bilər. Bu isə o deməkdir ki, liseydə təhsil alan uşaq dövlətimizin ona göstərdiyi qayğının əhatəsində dövlətçiliyimizə, müstəqilliyimizə sədaqət ruhunda formalaşacaq, ona göstərilən etimadı əməli fəaliyyəti ilə doğrultmağa çalışacaq.

Övladıma və onun kimi digər məktəblilərin kamil, intellektli gənclər kimi yetişdirilməsi üçün onlara yaradılan belə şəraitə, göstərilən qayğıya görə ailəmiz adından dövlətimizə minnətdarlığımızı bildiririk.

**Şirin MİRZƏYEVA**
***Ordubad rayon Aza kənd tam orta məktəbinin uşaq birliyinin rəhbəri***



## Uşaq bağçalarında nümunəvi şərait yaradılıb

***Hörmətli redaksiya! Sizə bu məktubu Naxçıvan şəhərindən yazıram. Əvvəla onu qeyd edim ki, övladım Aynur bu il Naxçıvan şəhər 3 nömrəli uşaq bağçasında aldığı məktəbəqədər təhsilini başa vurub və indi məktəbə hazırlaşır. Adını çəkdiyim məktəbəqədər müəssisənin övladıma orta məktəbin birinci pilləsinə qədəm qoymaq üçün öyrətdiklərinə görə çox sevinirəm. Bu sevincimdən doğan təəssüratları oxucularla bölüşməyi özümə mənəvi borc bilirəm.***

Bir valideyn kimi muxtar respublikada məktəbəqədər müəssisələr üçün yaradılan şəraitdən çox razıyam. Sözsüz ki, məktəbəqədər müəssisələrin yeni binalarla, ən müasir avadanlıqlarla təmin olunması, təlim prosesinin müasir üsullarla təşkili uşaqların fiziki, estetik inkişafına böyük təsir edir. Bu təsirin müsbət əlamətlərini övladımda da hiss etmişəm. Bağçalarda uşaqların qidalanması yüksək səviyyədədir, sağlamlığı daim diqqət mərkəzində saxlanılır. Nəğməli oyunlar, mahnı oxunması, rəqs və digər mədəni baxımdan spesifik fəaliyyətlər uşaqların gündəlik rejimlərinə daxil edilib.

Bu gün məktəbəqədər müəssisələrdə diqqətçəkən digər bir maraqlı məqam isə tərbiyəçilərin uşaqlara qarşı həssas, məsuliyyətli və qayğıkeş olmasıdır. Bundan başqa, muxtar respublikanın bütün məktəbəqədər müəssisələrində yaradıcılığa həvəsləndirən müvafiq mühit yaradılıb. İndi rəqs, musiqi, rəsm kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsinin səviyyəsi də yüksəkdir.

Muxtar respublikada məktəbəqədər təhsillə bağlı sevindirici yeniliklərdən biri də uşaq bağçalarında valideynlərin və tərbiyəçilərin ümumi səylərinin ortaya qoyulmasıdır. Buna misal olaraq deyə bilərəm ki, bir valideyn kimi uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, təlimdə, problemlərin həllində iştirak etməyə cəlb edilmişəm. Belə bir qarşılıqlı əməkdaşlıq övladımın məktəb həyatına daha rahat uyğunlaşma dövrünü keçməsinə təsir göstərib. Muxtar respublikada məktəbəqədər təhsilə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Məlahət NOVRUZOVA**
***Naxçıvan şəhər sakini***

## Muxtar respublikada fəaliyyət göstərən xidmət obyektləri müasirliyi ilə seçilir

***Salam hörmətli redaksiya! Bu məktubu sizə Naxçıvan şəhərindən yazıram. Bəri başdan deyim ki, şəhərimizin hər ötən gün daha da gözəlləşməsi bir sakin kimi məni çox sevindirir. Yaraşıqlı binalar, rahat yollar, gözəl parklar indi qədim Naxçıvanımızın müasirlik ənənələrini özündə əks etdirir. Etiraf etmək lazımdır ki, Naxçıvan şəhərində 5-6 ay olmayan birisi bura geri qayıtdıqda xeyli dəyişikliklərin şahidi olar. Mən özüm də belə dəyişikliklərin çox şahidi olmuşam. Qurulub-yaradılanlara çox sevinmişəm.***



Bu məktubda toxunacağım mövzu isə son dövrlərdə muxtar respublikamızda insanların istirahətinin təşkilində, milli mətbəx mədəniyyətimizin təbliğində mühüm rol oynayacaq məkanların yaradılması haqqındadır. Doğrudur, Naxçıvanımızın təbiəti, gözəl mənzərələri hər zaman diqqətçəkən olsa da, etiraf edək ki, 15-20 il bundan əvvəl müasir şəraitə malik istirahət məkanlarımız olmayıb və yaxud belə obyektlər, sadəcə, standart yeməkxana təsiri bağışlayıb. Çoxlarımız uzaq yerlərdən gələn qonaqlarımızı təbiətin təbii qoynundan başqa bir yerə aparmağa cəsarət etməmişik. Səbəb isə o olub ki, tanıdığımız məkanlar adi tələblərə belə, cavab verməyib. Sözün qısası, qonağımızı paytaxt Naxçıvan şəhərində və yaxud rayonlarımızda münasib bir məkana aparmaq üçün xeyli fikirləşməli olmuşuq. Əlbəttə, dost-tanışlarla gözəl bir məkana getməkdə məqsəd yemək və ya çay içmək deyil. Belə məkanlar müasir dövrdə həm də asudə vaxtı dəyərləndirmək, işgüzar söhbət etmək və sair üçün də faydalı hesab olunur. Son illərdə muxtar respublikamızda bu cür infrastruktur obyektlərinin yaradılması istiqamətində görülən işlər hər birimizi sevindirir. Ona görə sevindirir ki, indi bütün şəhər və rayonlarımızda qonaq-qara qəbul edəcək gözəl istirahət ünvanlarımız var, milli mətbəximizin ləziz nümunələrini təqdim edən restoranlarımız fəaliyyət göstərir. Bu yaxınlarda isə şəhərimizdə "Nuh yurdu" restoranının istifadəyə verilməsi bizi bir daha sevindirdi. Bəlkə də çoxları üçün adi görünə bilər, ancaq şəhərimizin, həqiqətən, belə bir ekzotik təbiətə malik restorana ehtiyacı vardı. Doğrudur, şəhərin müxtəlif yerlərində milli mətbəximizi təbliğ edən yeməkxanalar fəaliyyət göstərir. Ancaq yeni istifadəyə verilmiş "Nuh yurdu" restoranı bu obyektlərdən daha geniş və fərqli məkana malik olması ilə fərqlənir. Qəzetinizdə bu restoranın açılışı haqqında məlumatı oxuyandan sonra dost-tanışlarla ora getmək qərarına gəldik.

Qeyd edək ki, restoranın ərazisində yaradılmış şərait, klassik və müasir tərzin sintezini özündə birləşdirən atmosfer, sözün həqiqi mənasında, insana könül rahatlığı bəxş edir. Burada yaradılmış süni göl üzərində çay ocağının fəaliyyət göstərməsi, eləcə də gəmi maketli kafedə müxtəlif sərinləşdirici içkilərin təklif edilməsi çox xoşumuza gəldi. Bundan əlavə, müasir üslubda dizayn edilmiş restoran binası da özünəməxsus gözəlliyi ilə seçilir.

Şəhərimizdə bu cür gözəl bir restoranın açılmasına çox sevindik. Üstəlik, burada göstərilən xidmətdən də razı qaldıq. Ətrafdakı gözəlliklərdən zövq alaraq restoranın xidmətlərindən istifadə etmək hər kəsin zövqünü oxşayacaqdır. Ümid edirik ki, bu cür obyektlərin sayının artması gələcəkdə turizmin inkişafına da öz təsirini göstərəcək. Muxtar respublikamızda belə xidmət obyektlərinin istifadəyə verilməsinə görə bu işdə zəhməti olan hər kəsə minnətdarlığımızı bildiririk.

**Vüsal QULİYEV**
***Naxçıvan şəhər sakini***

*İyunun 24-də Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatı "Azərbaycan bəstəkarlığının inkişafında Vasif Adıgözəlovun rolu" mövzusunda birgə konfrans keçirmişlər.*

*Vasif Adıgözəlov – 80*

## "Azərbaycan bəstəkarlığının inkişafında Vasif Adıgözəlovun rolu" mövzusunda konfrans

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov açaraq qeyd etmişdir ki, bu il görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti, professor, "Şöhrət" və "İstiqlal" ordenli Vasif Adıgözəlovun anadan olmasının 80 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 11 fevral 2015-ci il tarixdə "Vasif Adıgözəlovun 80 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Vasif Adıgözəlovun 80 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 fevral 2015-ci il tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilmişdir. "Azərbaycan bəstəkarlığının inkişafında Vasif Adıgözəlovun rolu" mövzusunda konfransın keçirilməsi də həmin Tədbirlər Planında nəzərdə tutulan tədbirlərdən biridir.

Nazir Vasif Adıgözəlovun Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı rolundan danışmış, bəstəkarın janr müxtəlifliyi, forma rəngarəngliyi ilə seçilən, ürəkləri riqqətə gətirən əsərlərindən söhbət açmışdır.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov "Vasif Adıgözəlovun teatr yaradıcılığı" mövzusunda çıxış etmişdir. Bildirmişdir ki, görkəmli bəstəkarın yaradıcılığında səhnə əsərləri mühüm yer tutur. "Ölülər", "Natəvan" operaları, "Xəsis" operettası bəstəkarın gözəl əsərlər yaratmaq istedadını bütün dolğunluğu ilə göstərir. Vasif Adıgözəlovun şair Əliağa Kürçaylının "Nənəmin şahlıq quşu", "Boşanaq, evlənərik", Firudin Aşurovun "Lənət şeytana", Xalq yazıçısı Anarın "Aldın payını, çağır dayını" komediyalarına yazdığı musiqilər gözəl səhnə əsərləri kimi diqqəti cəlb edir.

Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov "Vasif Adıgözəlovun bəstəkarlıq fəaliyyəti" mövzusunda çıxışında bəstəkarın hərtərəfli, janr əlvanlığı ilə seçilən əsərlərindən söhbət açmışdır.

Naxçıvan Dövlət Universitetinin baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova "Vasif Adıgözəlovun yaradıcılığının əsas xüsusiyyətləri" mövzusundakı çıxışında sənətkarın musiqi sənəti salnaməmizə verdiyi bənzərsiz və rəngarəng əsərlərin sənətkarlıq xüsusiyyətlərindən söhbət açmışdır. Bildirilmişdir ki, Vasif Adıgözəlovun Azərbaycan musiqisinin inkişafı istiqamətində gördüyü işlər xalqımızın musiqi xəzinəsində layiqli yer tutur. Böyük bəstəkar və pedaqoqun yaradıcılığı parlaq melodizmi, muğamdan yaradıcılıqla bəhrələnmək, polaritmiya, tembr xüsusiyyətləri ilə insana sevinc, ümid, işıqlı duyğular aşılayır. Bu mənada, Vasif Adıgözəlovun musiqi əsərləri, operaları, mahnıları, kino musiqisi bu gün də sevilə-sevilə qəlblərə yol tapır. Yaradıcılığında vətənpərvərlik, torpağa məhəbbət duyğuları həmişə qabarıq olan Vasif Adıgözəlov bu gün də bizim müasirimizdir.

Konfransa Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov yekun vurmuşdur.

**Əli RZAYEV**

## Bəxtiyar Vahabzadə – 90: Yaşamaq yanmaqdır



**Naxçıvan Dövlət Universitetində bu mövzuda Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyinə həsr edilən elmi konfrans keçirilib.**

Elmi konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. O, Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2015-ci il 14 yanvar tarixli Sərəncamının görkəmli şairə dövlətimizin verdiyi böyük qiymət, ümumxalq məhəbbətinin ifadəsi olduğunu bildirib. Natiq Azərbaycanın Xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas və ictimai xadim, SSRİ-nin və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Vahabzadənin bədii fikrimizin zənginləşməsində mühüm rol oynadığını nəzərə çatdırıb. Qeyd olunub ki, böyük söz ustası xalqımızın yüz illərboyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə 60 ildən artıq bir müddət ərzində yorulmadan yazıb, yaradıb. Şair Azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına töhfələr verib. Saleh Məhərrəmov bildirib ki, Bəxtiyar Vahabzadənin yaradıcılığı Vətənlə, xalqımızın həyat tərzi, mədəniyyəti, tarixi ilə sıx bağlı olub.

"Bəxtiyar Vahabzadə yaradıcılığında tarixin əksi" mövzusunda məruzə ilə çıxış edən universitetin "Qeyrət" nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Vaqif Məmmədov bildirib ki, tarixi mövzulara müraciət edib yaddaqalan poeziya nümunələri yaradan, yaratdığı əsərlərlə özü də, bir növ, xalqın tarixinə çevrilən Bəxtiyar Vahabzadə müxtəlif illərdə yazdığı "Gülüstan", "Şəbi-hicran", "İstiqlal", "Ağlar güləyən", "Dörd yüz on altı", "Muğam", "Şəhidlər" və digər poemaları ilə çox gərəkli sənət nümunələri yaradıb.

Azərbaycan dilçiliyi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Arifə Zeynalova "Bəxtiyar Vahabzadə dilində məcazların işlənmə məqamları" mövzusunda məruzə edib. Bildirib ki, Bəxtiyar Vahabzadə canlı bədii obrazlar, yaddaqalan lövhələr yaratmaq üçün məcazlara tez-tez müraciət edib, ədəbiyyatımıza dəyərli poeziya nümunələri verib.

Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərov "Bəxtiyar Vahabzadə yaradıcılığında "Molla Nəsrəddin məktəbi" ənənələri" mövzusundakı məruzəsində bildirib ki, mollanəsrəddinçilərin əsərlərində, eləcə də Bəxtiyar Vahabzadənin yaradıcılığında Azərbaycan xalqının eyni xarakterli taleyüklü problemlərindən bəhs olunur.

Vurğulanıb ki, "Molla Nəsrəddin"də çap olunan materiallarla görkəmli şairə məxsus şeirlərin müqayisəli təhlili deməyə əsas verir ki, Bəxtiyar Vahabzadə sənəti "Molla Nəsrəddin" jurnalının yaradıcısı Cəlil Məmmədquluzadənin arzuladığı sənətdir və milli başəri ideyalarla zəngin Azərbaycan ədəbiyyatının əbədiyaşarlığını bir daha təsdiqləməkdədir.

Tarix-filologiya fakültəsinin tələbələri şairin "Özümdən narazıyam", "Mən türkəm", "Vətəndən-Vətənə" şeirlərini bədii qiraət ediblər.

Elmi konfransda Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığını əks etdirən fotoslayd nümayiş olunub.

**Mina QASIMOVA**

## "Naxçıvan" Universiteti tələbələrinin məzun günü keçirilib

***Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Naxçıvan" Universiteti tələbələrinin məzun günü keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Tədbiri universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli açaraq məzunları təbrik edib. Bildirilib ki, bu gün "Naxçıvan" Universiteti, sözün əsl mənasında, inkişaf mərhələsini yaşayır. Təhsil ocağına göstərilən qayğının nəticəsidir ki, ötən ildən universitetdə tədrisin səviyyəsini yüksəltmək məqsədilə bir neçə tədris korpusu tikilib. Qeyd olunub ki, 2014-2015-ci tədris ilinə qədər 27 ixtisas üzrə tədris aparan "Naxçıvan" Universiteti 2015-2016-cı tədris ilindən daha 4 ixtisas üzrə də təhsil verəcək. O da vurğulanıb ki, bu il universitetdə bakalavr pilləsi üzrə 158 nəfər tələbə təhsilini başa vurub.

Ali təhsil ocağının tərbiyə işləri üzrə prorektoru Əli Yusifov, Pedaqoji fakültənin dekanı Məftun İsmayılov çıxışlarında məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Məzunlar çıxışlarında universitetdə təhsil aldıqları müddətdə əhatə olunduqları yüksək diqqət və qayğıya, onlar üçün yaradılmış şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Sonda universitetin ictimai və mədəni həyatında fərqlənən bir qrup məzun mükafatlandırılıb.

"Dəniz" vokal instrumental ansamblı üzvlərinin ifasında səslənən bir-birindən maraqlı musiqi nömrələri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

**Nuray ƏSGƏROVA**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin

## Sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğu diqqət mərkəzindədir

məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda sağlamlıq imkanları məhdud şəxslərin sosial reabilitasiyasının təmin edilməsi də nəzərdə tutulub. Həmin vəzifənin yerinə yetirilməsi istiqamətində muxtar respublikada ardıcıl tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı kimi cari ilin mart ayının 10-da Naxçıvan Regional Peşə Tədris Mərkəzində sağlamlıq imkanları məhdud şəxslər üçün dərzi peşəsi üzrə kurs təşkil edilmişdi.

İyunun 24-də dərzi peşəsi üzrə üçaylıq təlim kursunu bitirən 6 müdavimə şəhadətnamə təqdim edilib və hədiyyə olaraq onların hər birinə tikiş maşını verilib. Məqsəd bu kateqoriyadan olan şəxslərin özünüməşğulluğunun təmin edilməsidir.

Bununla yanaşı, məzunlardan 2 nəfəri Nehrəm və Külüs kəndlərində istifadəyə verilən dərzi sexlərinə işə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Həkim briqadaları Qahab və Kükü kəndlərində profilaktik tibbi müayinələr aparıblar

*Muxtar respublika əhalisinin sağlamlığının mühafizəsi, dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə həkim briqadaları şəhər, qəsəbə və kəndlərdə kütləvi profilaktik müayinələri davam etdirirlər.*

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının pediatr, oftalmoloq, stomatoloq, nevropatoloq, cərrah və laborantlardan ibarət həkim briqadası Babək rayonunun Qahab kəndində uşaqlara profilaktik tibbi xidmət göstərib. Briqadanın fəaliyyəti zamanı 18 yaşadək olan əhalinin 67 nəfəri profilaktik müayinədən keçirilib, 69 nəfər valideynlə səhiyyə maarifi işi aparılıb. Dispanserizasiya işinin düzgün təşkili, peyvəndlərin təqvim üzrə aparılması, tibbi sənədləşmənin həyata keçirilməsi üçün həkim ambulatoriyasının tibb bacılarına metodik məsləhətlər verilib. Aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün müvafiq səhiyyə müəssisələrinə getmələri tövsiyə edilib. Xəstələr pulsuz dərman və sarğı materialları ilə təmin olunublar.

* * *

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası isə Şahbuz rayonunun Kükü kəndində yeni quruculuq ünvanlarından olan ikimərtəbəli həkim ambulatoriyasında kənd sakinlərini profilaktik müayinələrdən keçirib. Yüksəkixtisaslı həkimlərdən ibarət briqada kənd həkim ambulatoriyasının tibb işçilərinin də fəal iştirakı ilə gün ərzində 16 terapevtik, 18 pediatrik, 8 ginekoloji, 12 kardioloji, 14 cərrahi müayinə aparıb. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülüb, onlara ambulator kartlar açılıb. İki nəfərdə hipertoniya, 1 uşaqda anemiya, 1 uşaqda helmintoz aşkar edildiyindən onlar dispanser qeydiyyatına götürülüb, kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilib. 40-45 yaşlılar arasında dispanser işi ilə bağlı tədbirlər tamamlanıb. Əhali arasında ürək-damar, yoluxucu, dəri-zöhrəvi, şəkərli diabet, onkoloji, vərəm, göz, ginekoloji xəstəliklər, günvurma, ilan və əqrəb sancması zamanı ilkin tibbi xidmət, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti, qohumluq nikahının və zərərli vərdişlərin hamiləliyə ziyanı barədə səhiyyə maarifi işləri aparılıb, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilib.

Eyni zamanda ambulator qəbul, evə çağırış, ailə, dispanser xəstələrin, hamilələrin və peyvəndlərin qeydiyyatı jurnalları yoxlanılıb, çatışmazlıqların aradan qaldırılması üçün lazımi tapşırıqlar verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublika gömrük orqanlarında kinoloji xidmətin təşkili ilə bağlı müsabiqə elan edilir

Müsabiqəyə xidməti itlərlə işləmək həvəsi, bacarığı və bu sahədə təcrübəsi olan şəxslər dəvət olunur. Qeyd edək ki, kinoloqların təbeçiliyində olan xidməti itlərdən narkotik vasitələrin, odlu silahların və dövriyyəsi qanunla qadağan olunmuş digər malların aşkarlanaraq gömrük nəzarətinə cəlb olunması məqsədilə istifadə edilir.

Muxtar respublika gömrük orqanlarında kinoloji xidmətə işə qəbulla bağlı müsabiqə sınaq və müsahibə mərhələlərindən ibarət olacaq. Müsabiqədə hər bir namizədin bu sahədəki təcrübəsi, ümumi dünyagörüşü, gömrük orqanlarında xidmət etməyə yararlı və layiqli olması yoxlanılacaq.

Müsabiqəyə yaşı 40-a qədər olan şəxslər buraxılacaq.

Maraqlananlar Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinə müraciət edə bilərlər.

***Əlaqə telefonları: (036) 544-49-60; 544-49-72***

### İtmişdir

Abdinov Dünyamin İsa oğlunun adına Qaraçuq Kənd Uşaq musiqi məktəbi tərəfindən 31 may 2007-ci il tarixdə verilmiş 001622 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Abbasova Cahan Abbas qızının adına olan 390^ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 500